# HACIQABUL

№ 08 (667)

16 may 2017-ci il

Hacıqabul rayon İcra Hakimiyyətinin qəzeti


# Dünyanın ən böyük Azərbaycanlısı

## *Hacıqabullular ulu öndər Heydər Əliyevin doğum gününü böyük sevinclə qeyd etdilər*





***Bu gün Azərbaycan dünya miqyasında öndə gedən dövlətlər sırasında məğrur dayanır. Bu torpaq dahilər, böyük şəxsiyyətlər yetirib. Heydər Əliyev də belə şəxsiyyətlərdən idi. O, Azərbaycan xalqının yaddaşında həm böyük siyasətçi, həm də qətiyyətli, uzaqgörən dövlət başçısı kimi qalmışdır. Azərbaycan tarixinin ən çətin dönəmlərində ölkəmizin və xalqımızın istəyi və xoşbəxt gələcəyi naminə hakimiyyətə qayıtmış ulu öndər Azərbaycanı dünya arenasında qüdrətli bir dövlət kimi tanıdan, bütün ömrünü, həyatını respublikamızın inkişafına və çiçəklənməsinə həsr edən xalqımızın tarixi şəxsiyyəti kimi daim yaddaşlarda yaşayacaq. Xalqı, milləti azadlığa, dövləti istiqlaliyyətə qovuşduran, uzaqgörənliyi, fədakarlığı, insanlara məhəbbəti ilə seçilən Heydər Əliyev doğma Vətəninin dünyanın ən nüfuzlu, dinamik inkişafda olan dövlətlər sırasına yüksəlməsi üçün çalışdı, siyasi iradə nümayiş etdirdi. Azərbaycanın bugünkü inkişaf göstəriciləri ulu öndər Heydər Əliyevin uzaqgörən siyasi təfəkkürünün bəhrəsidir ki, Prezident İlham Əliyev tərəfindən davam etdirilir.***



Ulu öndər, dahi şəxsiyyət Heydər Əliyevin dünyaya gəlişi hər il ölkənin dörd bir yanında böyük sevinc və coşqu ilə qeyd olunur.

May ayının 10-da Hacıqabulda da bu münasibətlə ulu öndərin adını daşıyan parkda bayram şənliyi təşkil olunmuşdu. Səhər saatlarından başlanan izdiham, insanların dəstə-dəstə parka gəlişi axşama kimi davam etdi.

Burada təşkil olunmuş kitab bayramı, həm də məktəblilərin əl işlərindən ibarət rəsm sərgisi və müxtəlif sərgi nümunələri insanlara xoş əhval-ruhiyyə bəxş edirdi.

Şənliyə qatılan rayon İcra Hakimiyyətinin Başçısı Əhməd Muxtarov, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, ayrı-ayrı idarə-müəssisə rəhbərləri ulu öndərin abidəsi önünə tər gül dəstələri düzdülər.Sonra RİH Başçısı kitab bayramında kitab sərgisi ilə tanış oldu.

Həmin gün rayonda həmçinin ağacəkmə aksiyası da keçirildi. 400 nəfərdən çox insanın qatıldığı aksiyada 2000 ağac və gül kolları əkildi.

Ulu öndərin adını daşıyan parkda həmin gün yüzlərlə insan şənliyə qatıldı. Günün ikinci yarısında isə Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının nümunəvi orkestrinin müşayiəti ilə böyük konsert proqramı keçirildi. Konsert proqramında respublikamızın tanınmış mədəniyyət və incəsənət ustaları-respublikanın xalq artisti, Azərbaycan Dövlət Opera və Balet teatrının solisti Fidan Hacıyeva, əməkdar artist Zaur Əmiraslanov, Prezident təqaüdçüsü Amil Həsənoğlu və başqalarının çıxışları alqışlarla qarşılandı.

Axşam saatlarında isə böyük atəşfəşanlıq oldu.

***"Hacıqabul"***

# Vətən naminə



***Rayon Heydər Əliyev Mərkəzində rayon İcra Hakimiyyəti, Azərbaycan Vətən Müharibəsi Veteranları İctimai Birliyi və Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin birgə təşkilatçılığı ilə hərbi vətənpərvərlik mövzusunda "Vətən naminə" adlı tədbir keçirilmişdir.***

Tədbirdən öncə bir qrup veteran və Qarabağ müharibəsi əlilləri ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək, abidə önünə tər gül dəstələri düzdülər.

Sonra rayon Heydər Əliyev Mərkəzində davam edən tədbir şəhidlərimizin ruhunun bir dəqiqə sükutla yad edilməsindən sonra davam etdi.

Tədbiri açan rayon İcra Hakimiyyəti Başçısının 1-ci müavini Aslan Səmədov vətənpərvərlik hissinin tarixin bütün mərhələlərində öz aktuallığını qoruduğunu qeyd etdi.Vurğuladı ki, ulu öndər Heydər Əliyev hər zaman qeyd edirdi ki, vətənpərvərlik hissi insanın daxilindəki duyğulardır, əgər bunlar yoxdursa o, insan mənəviyyatsızdır. Bu fikrin mühüm əhəmiyyət kəsb etdiyini qeyd edən A.Səmədov vurğuladı ki, hər bir xalqın və millətin tarixində elə mərhələlər olur ki, vətənpərvərliyin ayrılmaz hissəsi olan hərbi vətənpərvərlik məfhumu ön plana çıxır.

Bu gün torpaqlarımızın 20 faizi işğal altındadır, bir milyondan çox soydaşımız qaçqın və məcburi köçkün şəraitində yaşayır. Sevindirici haldır ki, Azərbaycanın bu gün çox güclü və sarsılmaz ordusu var və Azərbaycanı qoruya biləcək vətənpərvər oğulları var.

Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən gənclər siyasəti gənclərimizin milli ruhda tərbiyə olunmasına, Vətənimizə, milli-mənəvi dəyərlərimizə sadiq olmasına xidmət edir.

Tədbirdə Azərbaycan Vətən Müharibəsi Veteranları İctimai Birliyinin sədr müavini Kamil Şirinov, rayon Ziyalılar Cəmiyyətinin sədri Şükür Məmmədov, rayon Veteranlar Şurasının sədri Əlibala Rəsulov, şəhər 8 saylı humanitar-fənlər təmayüllü məktəbliseyin hərbi müəllimi, Qarabağ Müharibəsi veteranı Ramil İbişov çıxış etdilər.

Sonra bir qrup Qarabağ müharibəsi əlilinə və veteranlarına "Vətən naminə" medalı və mükafatlar təqdim edildi.

Qeyd edək ki, rayon İcra Hakimiyyətinin Başçısı Əhməd Muxtarov da rayonda gənclər arasında vətənpərvərlik hisslərinin geniş vüsət almasında göstərdiyi köməyə, şəhid və əlil ailələrinə diqqət və qayğıya görə "Vətən naminə" medalı ilə təltif olundu.

***"Hacıqabul"***